**office**

---

| | |
|---|---|
| **От:** | Bahar ahmedova <baharahmedova09@gmail.com> |
| **Отправлено:** | 23 июля 2026 г. 18:19 |
| **Кому:** | office@barassociation.az |
| **Тема:** | Dövlət hesabına vəkillə təmin olunmasına ğörə Sumqayıt Reqional Vəkil Bürosuna minnətdarlıq ərizəsi |
| **Вложения:** | Screenshot_20260723_155349_com_android_chrome_ChromeTabbedActivity.jpg; 90ac6215-ab38-41ee-95e0-0d16b742a079.pdf; 0816a42b-b64c-4052-ba8c-428d37814701.pdf |

Hörmətli cənab Bağırov, yazıb Sizə və Sumqayıt Reqional Vəkil Bürosunun müdiri c. A. Qasımlıya, vəkil Bunyatov Əbülfəz bəyə, ğözəl Ğülxar xanıma öz dərin minnətdarlığımı bildirirəm.
İş 15(3-8)-47/2026 Hakim Cabbarovanın 14 iyul 2026 cı il tarixli Qərardadına vəkil Bunyatov kassasiya şikayətini yazıb by gün 23 iyul 2026 cı il tarixində birbaşa elektron formada işə yüklədi.
Sumqayıt Reqional Vəkil Bürosunun müdiri c. Qasımlı və bütün kollektiv vətəndaşa o gədər mülayim, mübasibət ğöstərirlər ki, sonsuz minnətdarlığımı bildirirəm.
Yaxşı ki, bu cür insan adamlar var. Dövlətimiz, vəkillərimiz bizə kömək əlini uzadırlar.
Sumqayıt Reqional Vəkil Bürosu tək xoş sözlərə layiqdir.
Müdir necə ğözəl insandı, kollektivdə müdirə baxıb işləyir. Nə yaxşı ki, c. Qasımlı kimi rəhbərlik var.
Allah hamınızdan Razı Olsun.
Təşəkkur edirəm.
Dərin hörmətlə Əhmədova Bahar Bulut qızı İddiaçı Vəliyev Əli Samir oğlunun valideyni və nümayəndəsi
Tarix:23.07.2026
Qoşma
Kassasiya şikayəti və sənədlər, vəkil orderi



Vəkillər Kollegiyasının Rəyasət Heyəti
Daxil olma № 3133
«24» 07 2026 il

# VƏKİL ƏRİZƏSİ

## VƏKİL BÜNYATOV ƏBÜLFƏZ İBRAHİM OĞLU TƏRƏFİNDƏN

**Vəkilin №-si:** 2368-VK

**Vəkilin pin №-si:** 2D2UCAH

**Məhkəmə işinin №-si:** 15(3-8)-47/2026

**Vəkilin Təmsil etdiyi tərəf:** Ərizəçi - VƏLİYEV ƏLİ SAMİR OĞLU (75PAUR9)

**Orderin №-si:** 1196/2026

**Orderin tarixi:** 14.07.2026

**Müqavilənin №-si:**

**Müqavilənin tarixi:** 14.07.2026

**Ərizəyə əlavə edilmiş sənədlər(Fayllar)**

| Sənədin növü | Faylın adı | Endir |
|---|---|---|
| order | Sənəd 54 (1).pdf | Endir |
| order | Sənəd 54 (1).pdf | Endir |
| ərizə | Elektron Vəkil Ərizə.pdf | |

**Ərizənin başlığı:** Vəkil ərizəsi

**Ərizənin mətni:**

Ərizədə qeyd olunan məhkəmə işinin seçilmiş tərəfinə vəkil kimi əlavə etməyinizi xahiş edirəm.

**Ərizəni imzalayan şəxs haqqında məlumat:**

**Asan nömrə İd:** +994513156544

**İdentifikasiya nömrəsi:** 1e7a060675c2cee4

**Tam adı:** BÜNYATOV ƏBÜLFƏZ İBRAHİM OĞLU

**Göndərilmə tarixi:** 23.07.2026

Azərbaycan Respublikasının
Ali Məhkəməsinin İnzibati Kollegiyasına

## *KASSASİYA ŞİKAYƏTİ*

***1. Apellyasiya şikayəti verən şəxs***
*1.1. Ad (fiziki və ya hüquqi şəxsin):* ***Əli***
*1.2. Soyad (fiziki şəxsin):* ***Vəliyev***
*1.3. Ata adı (fiziki şəxsin):* ***Samir oğlu***
*1.4. Şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi və fərdi identifikasiya nömrəsi (FİN) (fiziki şəxsin):*
***AA1303487 Fin 75PAUR9*** *VÖEN (hüquqi şəxsin və ya fərdi sahibkar statusuna malik fiziki şəxsin):*
*1.5. Ünvan (yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan*
*1.6. Elektron poçt ünvanı:*
*1.7. Mobil telefon nömrəsi (və ya nömrələri): 055 596 49 61*
*1.8. Apellyasiya şikayəti verən şəxsin işdə prosessual vəziyyəti:* ***iddiaçı,***
***2. Apellyasiya şikayəti verən şəxsin vəkili***
*2.1. Ad: Bünyatov*
*2.2. Soyad:Əbülfəz*
*2.3. Ata adı: İbrahim oğlu*
*2.4.Qeydiyyat ünvanı*
*2.5. Elektron poçt ünvanı:*
*2.6. Mobil telefon nömrəsi (və ya nömrələri):)****0513156544***
*2.7. Fəaliyyət forması:*
*2.7.1. Fərdi qaydada*
*2.7.2. Vəkillik qurumu tərkibində*
*Vəkillik qurumunun adı* Sumqayıt Regional Vəkil Bürosu .
*2.8. Orderin nömrəsi və tarixi:*
***3. Apellyasiya şikayəti verən şəxsin qanuni nümayəndəsi və ya nümayəndəsi***
*3.1. Ad: Bahar*
*3.2. Soyad: Əhmədova*
*3.3. Ata adı: Bulut oğlu*
*3.4. Ünvan (yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan)*
*3.5. Elektron poçt ünvanı:*
*3.6. Mobil telefon nömrəsi (və ya nömrələri):*
*3.7. Etibarnamə (və ya səlahiyyəti təsdiq edən digər sənəd):etibarnamə*
*3.8. Etibarnamənin nömrəsi*
*3.9. Kim tərəfindən təsdiq edilmişdir:*
*3.10. Verilmə tarixi:*
*3.11. Qüvvədə olma müddəti:*
***4. Barəsində şikayət olunan məhkəmə qətnaməsi və ya qərardadı haqqında məlumat***
*4.1. Qətnaməni və ya qərardadı qəbul etmiş birinci instansiyası məhkəməsinin adı:* ***Sumqayıt Apellyasiya Məhkəməsi***
*4.2. Qətnamə və ya qərardadın tarixi və nömrəsi:* ***14 iyul 2026-cı il tarixli, 15(3-8)-47saylı inzibati iş üzrə***
*4.3. Şikayət olunan qətnamə və ya qərardadın alınma tarixi:* ***14..07.2026-cı il***
*4.4. Mübahisənin predmeti: müvvəqəti xarakterli müdafiə tədbirinin tətbiqinə dair.*

*5. İşin halları*

*hər bir normanın qarşısında düzgün tətbiq edilməmənin nədən ibarət olduğuna dair mövqeni aydın şəkildə ifadə edən izah verilməlidir.*

İddiaçı Vəliyev Əli Samir oğlu Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon şöbəsinin Hərbi Tibbi Komissiyasına Qarşı iddia ərizəsi ilə Sumqayıt İnzibati Məhkəməsinə müraciət edərək ,"hərbi xidmətə dinc dövrdə yararsız,müharibə dövründə məhdud yararlı sayılması barədə qərar qəbul edilməsini məhkəmədən xahiş etmişdir.

Sumqayıt İnzibati Məhkəməsinin 2-1(118)-3932/2025 saylı,02.07.2025-ci il tarixli qərarı ilə Vəliyev Əli Samir oğlunun cavabdeh Azərbaycan Respubliası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon şöbəsinin Hərbi Tibbi Kommisiyasına qarşı "hərbi xidmətə dinc dövrdə yarasız,müharibə dövründə məhdud yararlı sayılması tələbinə dair iddiası təmin edilməmişdir.

İddiaçı Sumqayıt Apellyasiya Məhkəməsinə apellyasiya şikayəti vermiş,Sumqayıt Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 2-1(105)-890/2025 saylı,27.02.2026-cı il tarixli qərarı ilə iddiaçının apellyasiya şikayəti təmin edilmiş,işüzrə yeni qərar qəbul edilmiş,iddia təmin edilmiş,iddiaçı Vəliyev Əli Samir oğlunun hərbi xidmətə dinc dövrdə yararsız,müharibə dövündə məhdud yararlı sayılması barədə qərar qəbul edilməsi öhdəliyi cavabdeh Azərbaycan respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon şöbəsinin üzərinə qoyulmuşdur.

Adı çəkilən qərar qanuni qüvvəyə mindikdən sonra cavabdeh həmin qərardan kassasiya şikayəti vermişdir və hazırda iş Ali Məhkəmənin icraatındadır.

Ərizəçi həmçinin müvvəqəti xarakterli müdafiə tətbiri barədə ərizə ilə məhkəməyə müraciət etmiş"ona qarşı 01 iyul 2026-cı il tarixli hərbi çağırışla bağlı və digər hər hansı tədbir görülməsinə (çağırış,göndərişlərin verilməsi,tibbi müayinələrə cəlb eilməsi,çağırış vərəqəsininin imzalanması və s..) qadağan qoyulması,bu qadağanın cavabdeh tərəfindən Azərbaycan Respublikası Sumqayıt Apellyasiya Məhkəmsəinin 27.02.2026-cı il tarixli qərarın tam və düzgün yerinə (qırmızı hərbi biletin təqdim edilməsi.hərbi biletdə C yararlıq kateqoriyası və 59 B və 61 B maddələrinin düzgün qeyd edilməsi) icra olunana qədər qüvvədə saxlanılması" barədə qərardad qəbul edilməsini xahiş etmişdir.

Daha sonra ərizəçinin nümayəndəsi müvəqəti xarakterli müdafiə tədbirinə dair ərizənin dəqiqləşdirilməsi barədə ərizə ilə məhkəməyə müraciət edərək,iddiaçının həqiqi hərbi xidmətə çağrılmasının Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon şöbəsinə qadağan edilməsi barədə qəradad qəbul edilməsini xahiş etmişdir.

Sumqayıt inzibati Məhkəməsinin 15(4-8)-101/2026nömrəli,21.05.2026-cı il tarixli qəradadı ilə ərizə təmin edilmiş,iddiaçı Vəliyev Əli Samir oğlunun həqiqi hərbi xidmətə çağrılması Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Komitəsinin Abşeron rayon şöbəsinə qadağan edilməsi,qəradadın dərhal icra edilməsi qərara alınmışdır.(hakim Mehriban Mahmudlu- Abbaszadə)

Qəradadla razılaşmayan cavabdeh apellyasiya şikayəti verərək,qəradadın ləğv edilməsi və ərizənin təmin edilməməsinə dair qəradad qəbul edilməsini xahiş etmişdir.

.Sumqayıt Apellyasiya Məhkəməsinin inzibati kollegiyası cavabdeh tərəfindən verilmiş apellyasiya şikayətinin qismən təmin edilməsi,ərizənin mümkün sayılmamasına dair qərar qəbul etmişdir.

İddiaçı olaraq Sumqayıt Apellyasiya məhkəməsinin bu qəradadı ilə razılaşmırıq və hesab edirik ki,məhkəmə hazırkı mübahisə üzrə işin Ali məhkəmənin icraatında olmasını,iddiaçının

müvvəqəti xarakterli müdafiə tədbirinin tətbiqi ilə əlaqədar real sübutları və dəlillərini,sənədləri, nəzərə almamış, yalnız cavabdehin əsassız və heç bir hüquqi əsası olmayan fərziyələrinə və dəlillərinə söykənən qanunsuz və iddiaçının hüquqlarının kobud şəkildə pozulmasına yönələn bir qərar qəbul etmişdir

| *Sıra №* | ***Maddi hüquq norması*** | ***Maddi hüquq normasının pozulmasına və ya düzgün tətbiq edilməməsinə dair mövqe (dəlillər)*** |
|---|---|---|
| *1* | Birincisi ,qeyd etmık lazımdır ki,hələ 01.08.2017-ci ildə iddiaçı Vəliyev Əli Samir oğlu ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə alarkən hərbi Tibbi kommissiyası tərəfindən şəhadətləndirmə haqqında qərarına əsasən "Dinc dövrdə hərbi xidmətə yararsız ,müharibə dövründə məhdud yararlı kimi qeydiyyat aparılmış,66b və 68 b qeydləri əksini tapmışdır.Həmin ildə iddiaçı ayaqlarında olan anadangıəlmə ikitərəfli əyripəncəlik xəstəliyinə görə(nümunəvi əsgər çəkmələrini gəzdrə bilmədiyi üçün) və onurğasında 2-ci dərəcəli skolioz olduğu üçün 66 B və 68 B maddələri ilə C yararlıq kateqoriyasına aid edilmişdir.<br>**Bu isə "hərbi vəzifə və hərbi xidmət haqqında" qanunun 18 və 23.0.2 –ci maddələrinə əsasən iddiaçıya çağırışdan üç il müddətinə möhlət hüququ verir.**<br>Hərbi tibbi komissiyalar haqqında əsasnamənin 17-ci maddəsinə əsasən hərbi xidmətin keçilməsi üçün qeyd edilmiş xəstəliklərin təsnifatında skolioz xəstəliyi olsa da cavabdeh bu fakta məhəl qoymayaraq iddiaçının ünvanına yenidən çağırış vərəqəsini MY.Qov səhifəsində yerləşdirməklə ona hərbi kommisarlığa gəlməsi haqqında bildiriş vermişdir.<br>Bütün bunlar isə cavabdeh tərəfindən iddiaçının qanunsuz şəkildə təkrar müayinələrə cəlb etmək və hərbi xidmətə cəlb etmək niyyətinin açıq-aşkar təzahürüdür.Məhkəməyə | Təkcə hər iki ayaqda ikitərəfli əyripəncəlik olması, 2-ci dərəcəli skolioz xəstəliyi iddiaçının C yararlıq kateqoriyasına daxil edilməsinə kifayət edir. Lakin hərbi həkim kommisiyası bu xəstəlikləri hərbi xidmətə yararsız hesab edilməsi üçün kifayət hesab etməmişdir**Beləliklə, Sumqayıt inzibati məhkəməsinin qoyduğu qadağanın qeyri-müəyyən olması barədə cavabdehin fikri bu qərara əsasən bir daha təkzib olunur və Sumqayıt Apellyasiya məhkəməsinin iddiaçının ərizəsinin mümkünlük məsələsi ilə əlaqədar qərarının əsassız və qanunsuz hesab edimısi kassasiya məhkəməsi tərəfindən nəzərə alınmalıdır.**<br>Lakin, Sumqayıt Apellyasiya məhkəməsinin inzibati kollegiyası müvvəqəti müdafiə tədbirinin yalnız hərbi xidmətə çağırış vərəqəsini aldıqdan sonra tətbiq oluna biləcəyini hesab etməklə qanunun mahiyyətini və tələbini səhv təsfir etmiş və səhv nəticəyə gəlmişdir.<br>İddiaçı Vəliyev Əli Samir oğlu Bakı Slavyan Universitetinin sonuncu kursundə əyani təhsil alır,hərbi kommisarlığın ehtiyac olmadığı halda ona çağırış vərəqəsi göndərməsi onun təhsilinə mənfi təsir edir,məşğələlərdən yayınmasına və səhhətində olan problemlərlə əlaqədar tez yorulmasına ,ruhdan düşməsinə səbəb olur.<br>Onsuz da səhhətində ciddi problemlər olan iddiaçı hərbi xidmətə cəlb olunarsa vəziyyəti kəskin şəkildə |

| | | |
|---|---|---|
| | bildirmək istəyirik ki,əslində iddiaçının nümayəndəsi də,iddiaçı da sağlamlığı imkan verərsə,Azərbaycan Ordusunda xidmət etməyi böyük şərəf sayırlar.Təssüf ki,səhhəti bu şərəfli vəzifəni yerinə yetirməyə imkan vermir.<br>Bu qədər xəstəlikləri olan bir şəxsi cavabdeh heç bir əsas olmadan A3 yararlıq kateqoriyasına aid etmişdir və biz məhkəməyə müraciət etmək məcburiyyətində qaldıq.<br>Sumqayıt inzibati məhkəməsi ilkin iddiamızı təmin etməsə də,Sumqayıt Apellyasiya Məkəməsinin inzibati kollegiyası 27.02.2026-ci il tarixli qərarında iddiaçını C yararlıq kateqoriyasına aid etmişdir.Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya birliyi publik hüquqi şəıxsi tərəfindən iddiaçı Əli Vəliyevə Onurğanın 2-ci dərəcəli döş kifo-skoliozu ,anadangəlmə sağ pəncənin i(birinci )dərəcəli,sol pəncənin 2(ikinci) dərəcəli<br>yastıpəncəliyi,Osteoporoz,Anadangəlmə əyripəncəlik diaqnozu qoyulmuşdur. **İnzibati mübahisələrədair işər üzrə məhkəmə qaydasında tətbiq edilən müvvəqəti xarakterli müdafiə tədbirləri haqqında Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenuunun 04 oktyabr 2023-cü il tarixli qərarının 1.3-cü bəndində haqlı olaraq qeyd edilir ki,iddiaicraatından fərqli olaraq müvvəqəti xarakterli müdafiə icraatında qəbul edilən qərarlar şəxslərə yekun hüquq vermir,hüquq münasibətlərinə yalnız müvvəqəti təsir edir.**<br>**Həmin qərarın 2.4-cü maddəsinə əsasən mövcud vəziyyətin dəyişəcəyi** | pisləşər,səhhətində geridönməz problemlər yarana bilərdi.Bu isə əlavə iztirablar,maddi vəsait və vaxt itkisinə səbəb olmaqla yanaşı iddiaçının həyat səviyyəsinin ciddi şəkildə pisləşməsinə səbəb olardı.Bu problemlərlə üzləşməmək məqsədi ilə məhkəmənin müvvəqəti müdafiə tədbirlərinin tətbiqi zərurəti yaranmışdı |

| | | | |
|---|---|---|---|
| | | təqdirdə ərizəçinin(iddiaçının) hüquqlarının qorunmasının (təmin və bərpa edilməsinin) mümkün olmayacağı və ya xeyli dərəcədə çətinləşəcəyi halda ,ilkin təcili tənzimləməyə ehtiyac yarandıqda,inzibati aktın dayandırılması ilə bağlı olmayanİPM-nin 43-cü maddəsində nəzərdə tutulan digər müvvəqəti xarakterli təminat tədbirləri görülə bilər.Sözügedən təminat tədbirlərini tətbiq edərkən məhkəmə tərəflərin iradəsinə təsir etməkdən daha çox ,mövcud vəziyyəti qorumağa çalışır. | |
| | | | |

***7. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsinə dair dəlillər***

*Bu hissədə şikayət edilən qətnamə və ya qərardad çıxarılarkən düzgün tətbiq edilmədiyi iddia olunan hər bir prosessual hüquq norması sıralanmaqla göstərilməlidir. Göstərilmiş hər bir normanın qarşısında düzgün tətbiq edilməmənin nədən ibarət olduğuna dair mövqeni aydın şəkildə ifadə edən izah verilməlidir.*

| *Sıra №* | *Prosessual hüquq norması* | *Prosessual hüquq normasının pozulmasına və ya düzgün tətbiq edilməməsinə dair mövqe (dəlillər)* |
|---|---|---|
| *1* | Azərbaycan Respublikası MPM-nin 40.1-ci maddəsinə əsasən maraqlı şəxs inzibati aktın(bu məcəllənin 131.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş inzibati akt istisna olmaqla ) icrasının dayandırılması, barədə və ya iddianın təmin edilməsinə (iddiaçının hüquqlarının qorunmasına) yönəlmiş digər təminat tədbirlərinin görülməsi | Həmçinin, apellyasiya məhkəməsi Sumqayıt inzibati məhkəməsinin qəradadında müvvəqəti müdafiə tədbirinin tətbiqi müddətinin göstərilməməsini əsas gətirərək qərdadı dəyişərək hissəvi ləğv edə bilər,qəradadı qalan hissədə dəyişmədən saxlaya bilərdi.Bununla da iddiaçının hüquqlarının müəyyən qədər qorunmasına kömək olardı.<br>Digər tərəfdən isə apellyasiya məhkəməsi iddiaçıya MY.qov.vasitəsi ilə çağırış vərəqəsinin göndərilməsini də ciddi qüsur olmasına əhəmiyyət verməmiş ,müvvəqəti təminat tədbirinin tətbiqinə mane olan hal kimi qiymətləndirməyərək ,iddiaçının hüquqlarının pozulmasına səbəb olan faktı nəzətdən qaçırararq əsassız qəradad qəbul etmişdir.<br>Azərbaycan Respublikası MPM-nin 90-cı maddəsinə əsasən Apellyasiya instsnsiyası məhkəməsinin qərar və ya qərardadlarından ,bu |

| | | |
|---|---|---|
| | barədə məhkəməyə müraciət edə bilər.<br>Həmin məcəllənin 40.3-cü maddəsinə əsasən məhkəmə müvvəqəti müdafiə xarakterli müdafiə tədbiri qismində cavabdehin üzərinə müəyyən hərəkətləri etmək və ya müəyyən hərəkətləri etməkdən çəkinmək,yaxud müəyyən hərəkətlərə dözmək barədə vəzifə qoya bilər.<br>Sumqayıt inzibati məhkəməsinin Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Komitəsinin Abşeron rayon şöbəsinə iddiaçı Vəliyev Əli Samir oğlunun 01 iyul 2026-cı il tarixində hərbi xidmətə çağırışla əlaqədar çağırış barədə bildirişin verilməsi,hər hansı formada müayinəyə cəılb edilməsinə qadağan qoyması məhz bu məqsədi daşımışdır **Azərbaycan Respublikası MPM-nin 41.4-cü maddəsinə görə inzibati aktın icrası müvvəqəti xarakterli müdafiə barədə müvafiq qərar işin faktiki və hüquqi** | məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla Ali məhkəmənin inzibati kollegiyasına şikayət verilə bilər.<br>Azərbaycan Respublikası MPM-nin 96.5-ci maddəsinə əsasən şikayətin əsaslı olduğu hallarda Ali Məhkəmə ,bir qayda olaraq,mübahisə ilə bağlı işə dair özü qərar qəbul edir.<br>Həmin qanunun 96.9.-cu maddəsinə görə Ali məhkəmə apellyasiya instansiyası məhkəməsinin qərarını(qərardadını) dəyişdirmədən qüvvədə saxlaya bilər,dəyişdirə bilər və ya ləğv edərək (tam və ya qismən) yeni qərar qəbul edə bilər |

| | | | |
|---|---|---|---|
| | | **hallarının ilkin araşdırılması nəticəsində iddianın böyük ehtimalla uğurlu olacağı qənaətinə gəldiyi hallarda inzibati aktın icrası ,iddia ilə bağlı işə mahiyyəti üzrə baxıb qurtaranadək dayandırılır.**<br>**Əsas iddia üzrə iş isə Ali Məhkəmənin icraatındadır,yekun qərar qəbul edilməmişdir** Qeyd edilənlərə və Azərbaycan Respublikası MPM-nin 90,92,96 və 98-ci maddələrinin maddələrini rəhbər tutaraq məhkəmədən | |
| *24* | | | |

***8. Məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün faktiki halların aydınlaşdırılmamasına dair dəlillər***

*Bu hissədə məhkəmənin hansı faktiki halları aydınlaşdırmadığı dəqiq göstərilməli və hər birinin qarşısında bu halın məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyətinin nədən ibarət olduğuna aydın şəkildə izah verilməlidir.*

...əhkəmə iddiaçının göstərdiyi xüsusatlar üzrə tam, hərtərəfli və obyektiv araşdırma aparılmasını təmin etmədən cavabdehin təqdim etdiyi natamam sənədlərə istinad etməklə- qərar qəbul edib.

**9. Birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş, iş üçün əhəmiyyəti olan halların sübut edilməməsinə dair dəlillər**

*Bu hissədə məhkəmə tərəfindən müəyyən edilmiş, iş üçün əhəmiyyəti olan hansı halların sübut edilməməsi dəqiq göstərilməli və hər birinin qarşısında bunun nədə ifadə olunmasına (qanunla göstərilən sübutlarla təsdiq edilməməsi və ya qeyri-mötəbər, ziddiyyətli, aid olmayan sübutlarla təsdiq edilməsi) aydın şəkildə izah verilməlidir.*

**10. Birinci instansiya məhkəməsinin qətnamədə göstərilmiş nəticələrinin işin hallarına uyğun gəlməməsinə dair dəlillər**

*Bu hissədə məhkəmənin müəyyən edilmiş faktlardan tərəflərin qarşılıqlı münasibətləri üzrə səhv nəticəyə gəlməsi ilə bağlı hallar göstərilməli və bunun nədən ibarət olduğuna aydın şəkildə izah verilməlidir.*

**11. Birinci instansiya məhkəməsinə təqdim edilməmiş yeni sübutlar və onların təqdim edilməsinin əsaslandırılmasına dair dəlillər**

*Bu hissədə birinci instansiya məhkəməsinə təqdim edilməmiş yeni sübutlar göstərilir. Həmin sübutların birinci instansiya məhkəməsinə təqdim edilməsinin şikayət verən şəxsdən asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandıran dəlillər qeyd edilməlidir.*

**12. Apellyasiya şikayəti verən şəxsin tələbi**

*Bu hissədə apellyasiya şikayəti verən şəxs özünün tələblərini aydın göstərməli, yəni, məhkəmə aktının tam və ya qismən ləğv edilməsinə və yaxud dəyişdirilməsinə və mübahisənin həlli ilə bağlı nə barədə qərarın qəbul edilməsinə dair tələblərini dəqiq bildirməlidir.*

.Sumqayıt Apellyasiya məhkəməsinin inzibati kollegiyasının 14.07.2026-cı il tarixli,15(3-8)-47/2026 saylı qərardadının ləğv edilməsi,Sumqayıt inzibati məhkəməsinin 02.07.2026-cı il tarixli,2-1(105)-890/2026 qərdadının qüvvədə saxlanması barədə qərar qəbul edəsiniz

**13. Apellyasiya şikayətinə əlavə edilmiş sənədlər**

*Dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd, order, etibarnamə, vəsatətlər və s.*

**14. İmza və tarix:**

*14.1. Apellyasiya şikayəti verən şəxsin və ya onun nümayəndəsinin, vəkilinin (olduğu halda) imzası:*

*,ikayət hüquqi şəxs tərəfindən verildikdə onu imzalamaq hüququ olan şəxs tərəfindən imzalanmalı və möhürlə təsdiq olunmalıdır.*

***İmza:***

İddiaçı Vəliyev Əli Samir oğlunun Nümayəndəsi — Əhmədova Bahar Bulut qızı

Ərizəçinin vəkili — Bünyatov Əbülfəz İbrahim oğlu

## İLKİN HƏRBİ QEYDİYYATA ALINMA HAQQINDA VƏSİQƏ

**İQ № 010023**

Soyadı Vəliyev

Adı Əli

Atasının adı Samir

Anadan olduğu gün, ay və il 11.06.2001

01. 08. 2017 ildə tibbi komissiyanı keçmiş və Dinc dövrdə h/x y-dır, müharibə dövr. məh. y-dır
(hərbi xidmətə yararlılığı)
sayılmışdır.

m-066688



AR SHXÇDX-nin Sabunçu r-n

rayon (şəhər) idarəsi (şöbəsi, bölməsi) tərəfindən ilkin hərbi qeydiyyata alınmışdır.

01.08 2017 il

M.Y. Sabunçu r-n
(idarə, şöbə, bölmə) rəisinin

polkovnik R. Babayev
hərbi rütbəsi, imzası, adı və soyadı)

## ÜMUMİ MƏLUMATLAR

1. Doğulduğu yer Bakı şəhəri
2. Milliyyəti azərbaycanlı
3. Təhsili
4. Mülki ixtisası
5. Ailə vəziyyəti

21:09 88 %

Müddətli həqiqi hərbi xid...

Vətəndaş, Səfərbərlik və Hərbi xidmətə çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon şöbəsində hərbi qeydiyyatdadır və ona rayon çağırış komissiyasının qərarı ilə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun  maddəsinə əsasən 01.07.2026-cı il tarixinədək müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət verilmişdir.

21:13 88 %

SHXÇDX

13.05.2026 16:51

ÇAĞIRIŞ VƏRƏQƏSİ : Hörmətli VƏLİYEV ƏLİ SAMİR oğlu, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunun 12.2.1-ci maddəsinə əsasən, Siz 2026-cı ilin iyul çağırışına cəlb olunursunuz.
Sizin barənizdə qanunamüvafiq qərarın qəbul olunması üçün 3 (üç) gün ərzində şəxsiyyət vəsiqənizlə birlikdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin

Abşeron (baş idarəsinə, idarəsinə, şöbəsinə, bölməsinə) gəlməyiniz tələb olunur. Qeyd: 1. İXM-nin 606.3-cü maddəsinə əsasən, qanunla nəzərdə tutulmuş hallarda həqiqi hərbi xidmətə çağırışla əlaqədar çağırış üzrə üzrlü səbəblər olmadan gəlməmə inzibati məsuliyyət yaradır.

2. Cinayət Məcəlləsinin 321.1-ci maddəsinə əsasən, qanuni əsas olmadan hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan boyun qaçırma cinayət məsuliyyətinə səbəb olur.

3. Miqrasiya Məcəlləsinin 9.3.5-1-ci maddəsinə müvafiq olaraq, müddətli həqiqi hərbi xidmətə çağırışdan boyun qaçırdıqda vətəndaşların ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılır.

16:44 61 %

## Bildirişlər

Hamısı | Şəxsi | Yeniliklər | Xəbə

Yeni yaşınız innovativ düşüncə və rəqəmsal imkanlarla dolu olsun!...
10:00

27.05.2026

**SHXÇDX**
Əli Vəliyev Samir oğlu, Sizin cari ilin İyul çağırışına cəlb olunmağınızla əlaqədar 01.06.2...
17:51

13.05.2026

**SHXÇDX**

27.05.2026 17:51

Əli Vəliyev Samir oğlu, Sizin cari ilin İyul çağırışına cəlb olunmağınızla əlaqədar 01.06.2026 tarixində saat 08:00-da şəxsiyyət vəsiqə ilə Xidmətin Abşeron rayon şöbəsinə gəlməyiniz tələb olunur.

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN**
**"MƏHKƏMƏ-TİBBİ EKSPERTİZA VƏ PATOLOJİ ANATOMİYA BİRLİYİ"**
**PUBLİK HÜQUQİ ŞƏXSİ**

AZ 1078, Bakı şəhəri
Mərdanov qardaşları küçəsi 131

Tel: 594-78-11, Faks: 594-63-43
Elektron poçtu: mtepab@esehiyye.az

№ 190 «15» 01 2026-cı il

**Azərbaycan Respublikası**
**Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi**
**cənab İsmayıl Quliyevə**
**(AZ 5000, Sumqayıt şəhəri, Sülh pr 70.)**

Məhkəmə-tibbi ekspertiza keçirilməsi barədə 06.11.2025-ci il tarixli qərardad əsasında vətəndaş Vəliyev Əli Samir oğlunun sağlamlıq vəziyyətinin təyininə dair tərtib edilmiş T14/2026 saylı ekspert rəyi Sizə göndərilir.

**QOŞMA:** tibbi sənədlər.

**Baş direktor:** **professor Ədalət Həsənov**

Forma № -72/U

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
09.10.2002-ci il tarixli 137
saylı əmri ilə təsdiq edilmişdir

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN "MTE VƏ PAB" PHŞ**

**EKSPERT RƏYİ № T 14/2026**
**(canlı şəxsin ekspertizası)**

SAĞLAMLIQ VƏZİYYƏTİNİN TƏYİNİNƏ DAİR:

Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi İsmayıl Quliyevin

"06" noyabr 2025-ci il tarixli №-li qərardadı əsasında

Ekspertizanın keçirildiyi yer **Təkrari Ekspertizalar şöbəsində**

Məhkəmə-tibb eksperti(ləri) **Abbasov Fəxrəddin Cəbrayıl oğlu** – şöbə rəisi, ali dərəcəli
soyadı, adı, atasının adı, ixtisası, iş təcrübəsi
məhkəmə-tibb eksperti, iş təcrübəsi 1981-ci ildən.

**Vəlizadə Təranə Fəzayıl qızı** –məhkəmə-tibb eksperti, iş təcrübəsi 2015-ci ildən
soyadı, adı, atasının adı, vəzifəsi, dərəcəsi

Vətəndaş **Vəliyev Əli Samir oğlunun** məhkəmə-tibbi müayinəsi keçirildi.

Təvəllüdü: 2001 Peşəsi işsiz

Ünvanı: Sumqayıt şəhəri, Yeni şəhərcik bina 47, m 51

Təqdim etdiyi sənəd: Şəxsiyyət vəsiqəsi: AA № 1303487
yaxud şəxsiyyətini təsdiq edən digər fotoşəkilli sənəd

AR CPM-in 97-ci maddəsində nəzərdə tutulan hüquq və vəzifələri ekspertə izah olundu və ona AR CM-in 297-ci maddəsinə əsasən bilə-bilə yalan rəy verilməsi ilə əlaqədar məsuliyyəti barədə xəbərdarlıq edildi.

Ekspert(lər)

Ekspertizada iştirak etdilər

Ekspertizanın başlanma tarixi: «20» noyabr 2025-ci il

Ekspertizanın başa çatma tarixi: «09» yanvar 2026-cı il

Ekspertizada həll edilməli suallar və ekspert rəyinin digər bölmələri sonrakı 03 vərəqdə şərh edilir.
Ekspert rəyi təhqiqatçının, müstəntiqin, prokurorun, hakimin və qanunvericiliklə müəyyən edilmiş digər şəxslərin qərarı və məhkəmənin qərardadı əsasında məhkəmə-tibbi ekspertiza aparılarkən tərtib edilir.

**Ekspertiza qarşısında aşağıdakı sual qoyulmuşdur:**

İddiaçı Vəliyev Əli Samir oğlu Azərbaycan Respublikası Səhiyyə Nazirliyi "Azərbaycan Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu" publik hüquqi şəxsində canlı müayinə olunmaqla, onda:

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"-nin 59-cu maddəsində qeyd olunan "Onurğanın xəstəlikləri və onların nəticələri (anadangəlmə deformasiyalar və inkişaf qüsurlarından başqa)" diaqnozlu xəstəlik üzrə funksiyaların pozulması varmı? Varsa hansı dərəcədədir - mühüm, mülayim, cüzi və yaxud funksiyaların pozulması olmayan obyektiv əlamətlər ilə?

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"-nin 61-ci maddəsində qeyd olunan "Yastıayaqlılıq və ayağın digər deformasiyaları" diaqnozlu xəstəlik üzrə funksiyaların pozulması varmı? Varsa hansı dərəcədədir - mühüm, mülayim, cüzi və yaxud funksiyaların pozulması olmayan obyektiv əlamətlər ilə?

**İş haqqında məlumat:**

20.11.2025-ci il tarixdə "MTE və PA Birliyi" Phş-in Təkrari ekspertizalar şöbəsinə daxil olmuş, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi İsmayıl Quliyevin 06.11.2025-ci il tarixli qərarından görünür ki, iddiaçı Vəliyev Əli Samir oğlu cavabdeh Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon şöbəsinin Hərbi Tibbi Komissiyasına qarşı məhkəməyə iddia ərizəsi ilə birinci instansiya məhkəməsinə müraciət edərək, hərbi xidmətə dinc dövründə yararsız, müharibə dövründə məhdud yararlı sayılması öhdəliyinin cavabdehin üzərinə qoyulması barədə qərar qəbul edilməsini xahiş etmişdir. Sumqayıt İnzibati Məhkəməsinin 02 iyul 2025-cü il tarixli, 2-1(118)-3932/2025 nömrəli qərarı ilə iddia təmin edilməmişdir (hakim Mehriban Mahmudlu-Abbaszadə). İddiaçı qərardan apellyasiya şikayəti verərək, qərarın ləğv edilməsi və iddianın təmin edilməsinə dair qərar qəbul edilməsini xahiş etmişdir. Məhkəmə kollegiyası tərəflərin dinlənilmə hüququnu təmin edib, iş materiallarını araşdıraraq və formalaşmış məhkəmə təcrübəsini nəzərə alaraq hesab edir ki, iş üzrə əlavə məhkəmə-tibbi ekspertizası təyin edilməlidir. Azərbaycan Respublikası İPM-nin 1.2-ci maddəsinə əsasən bu Məcəllə ilə başqa qayda müəyyən edildiyi və bu Məcəllə ilə nəzərdə tutulmuş prosessual prinsiplərə zidd olmadığı hallarda, inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatında (bundan sonra-inzibati məhkəmə icraatı) Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin müddəaları tətbiq oluna bilər. Azərbaycan Respublikası MPM-nin 97.1-ci maddəsinə əsasən işə baxılarkən xüsusi bilik tələb olunan sualları izah etmək üçün məhkəmə işdə iştirak edən şəxsin vəsatəti və ya öz təşəbbüsü ilə ekspertiza təyin edə bilər. Birinci instansiya məhkəməsində icraat zamanı Sumqayıt İnzibati Məhkəməsinin 2- 1(118)-3932/2025 nömrəli, 03 aprel 2025-ci il tarixli qərardadı ilə iş üzrə məhkəmə-tibbi ekspertizası təyin edilmiş və ekspertizanın keçirilməsi Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və

Patoloji Anatomiya Birliyi publik hüquqi şəxsinin ekspertlərinə həvalə olunmuşdur. Ekspert qarşısında aşağıdakı suallar qoyulmuşdur: İddiaçıda əyripəncəlik və ya yastıpəncəlik xəstəliklərindən hansı aşkar olunur? Skolioz xəstəliyi hansı dərəcədə (formada) aşkar olunur? Qərardadda ekspertiza tədqiqatının cavabdehin nümayəndəsinin iştirakı olmadan aparılması qeyd edilsə də, ekspertiza hərbi həkim komisiyyasının mütəxəssisinin iştirakı ilə aparılmışdır. İş materiallarından görünür ki, hazırki mübahisənin əsasını təşkil edən hal ondan ibarətdir ki, cavabdehin mövqeyinə əsasən iddiaçı Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin "Xəstəliklər cədvəli"nin 59ç və 61ç maddəsinin I qrafasına əsasən rayon çağırış komissiyasının qərarı ilə "Hərbi xidmətə yararlıdır-A4" hesab edilmişdir. İddiaçı isə hərbi xidmətə dinc dövründə yararsız, müharibə dövründə məhdud yararlı sayılması öhdəliyinin cavabdehin üzərinə qoyulması barədə qərar qəbul edilməsini xahiş edir. Bu isə onu deməyə əsas verir ki, iddiaçı onda mövcud olan xəstəliklərin "Xəstəliklər cədvəli"ndə hərbi xidmətə yararlılığın "C" bəndinə uyğun olduğunu hesab edir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"yə əsasən "Xəstəliklər cədvəli"ndə hərbi xidmətə yararlılığın aşağıdakı kateqoriyaları nəzərdə tutulmuşdur: "A" — hərbi xidmətə yararlıdır; "B" — sıradankənar hərbi xidmətə yararlıdır; "C" — sülh dövründə hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlıdır; "Ç" — hərbi xidmətə müvəqqəti yararsızdır; "D" — həm dinc dövrdə, həm də müharibə dövründə, hərbi xidmətə yararsızdır. Belə olan halda məhkəmə kollegiyası hesab edir ki, sözügedən diaqnozların pozuntu dərəcəsi müəyyən edilməli, ekspert qarşısında yeni suallar qoyulmalıdır. Belə ki, birinci instansiya məhkəməsində icraat zamanı alınmış ekspert rəyində qeyd olunan hallara aydınlıq gətirilmədiyindən iş üzrə əlavə ekspertiza təyin edilməsinə zərurət yaranmışdır. Kollegiya qeyd edir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"-nin 59-cu maddəsində qeyd olunan "Onurğanın xəstəlikləri və onların nəticələri (anadangəlmə deformasiyalar və inkişaf qüsurlarından başqa)" diaqnozlu xəstəliyin iddiaçıda "funksiyaların mühüm dərəcədə pozulması ilə", "funksiyaların mülayim dərəcədə pozulması ilə", "funksiyaların cüzi dərəcədə pozulması ilə" və ya "funksiyaların pozulması olmayan obyektiv əlamətlər olduqda" dərəcəsində olub-olmaması, eləcə də Əsasnamə"-nin 61-ci maddəsində qeyd olunan "Yastıayaqlılıq və ayağın digər deformasiyaları" diaqnozlu xəstəliyin iddiaçıda "funksiyaların mühüm dərəcədə pozulması ilə", "funksiyaların mülayim dərəcədə pozulması ilə", "funksiyalarıncüzi dərəcədə pozulması ilə" və ya "funksiyaların pozulması olmayan obyektiv əlamətlər olduqda" dərəcəsində olub-olmaması müəyyən edilməlidir. "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunun 6-cı maddəsinə əsasən, məhkəmə ekspertizası aparılarkən ekspert müstəqildir, onun məhkəmə ekspertizasını təyin (sifariş) etmiş orqandan və ya şəxsdən, tərəflərdən və işin nəticəsində marağı olan digər şəxslərdən hər hansı asılılığı ola bilməz. Ekspert özünün xüsusi biliyinə və daxili inamına əsaslanaraq aparılmış tədqiqatın nəticələrinə uyğun olaraq rəy verir.

Məhkəmələr (hakimlər), təhqiqat aparan şəxs, müstəntiq, prokuror, habelə digər dövlət orqanları, təşkilatlar və ya ayrı-ayrı şəxslər tərəfindən proses iştirakçılarından hər hansı birinin maraqlarına cavab verən və ya digər şəxslərin xeyrinə olaraq rəy əldə etmək məqsədi ilə ekspertə hər hansı formada təsir göstərilməsi qadağandır. Ekspertə təsir göstərilməsində təqsirkar olan şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır. Həmin Qanunun 17-ci maddəsinə əsasən, ilkin məhkəmə ekspertizasının rəyi kifayət qədər aydın olmadıqda, ekspert qoyulmuş sualları tam həll etmədikdə və ya tədqiqat aparılmış obyektlərə dair əlavə suallar yarandıqda, aparılmış tədqiqatın və ya rəydəki boşluğun aradan qaldırılması üçün əlavə məhkəmə ekspertizası təyin (sifariş) edilir və onun aparılması həmin ekspertə və ya başqa ekspertə həvalə edilir. Qeyd olunan normalardan göründüyü kimi, əlavə ekspertiza aparılması üçün əsasların dairəsinə tədqiqat aparılmış obyektlərə dair əlavə suallar yaranması da aid edilmişdir. Beləliklə, qeyd olunanlara əsasən hazırkı iş üzrə əlavə ekspertizanın aparılmasına zərurət yaranmışdır. İşin qeyd edilən xüsusatlarını nəzərə alaraq kollegiya hesab edir ki, iş üzrə əlavə məhkəmə tibbi ekspertizası təyin edilməli, ekspertizanın keçirilməsi cavabdeh inzibati orqanın mütəxəssisləri cəlb edilmədən, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi "Azərbaycan Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu" publik hüquqi şəxsinin mütəxəsislərinin rəyi alınmaqla Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin MəhkəməTibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi publik hüquqi şəxsinin ekspertlərinə tapşırılmalıdır.

**Məhkəmə-tibbi rəy:**

Sumqayıt İnzibati Məhkəməsinin hakimi Mehriban Mahmudlu-Abbaszadənin 03.04.2025-ci il tarixli qərardadı əsasında vətəndaş Vəliyev Əli Samir oğlunun MTE və PA Birliyi" phş-in Təkrari ekspertizalar şöbəsində məhkəmə-tibbi müayinəsi keçirilmiş və bu haqda 16.04.2025-ci il tarixli 336 saylı rəy tərtib edilmişdir. Rəyin təsviri hissəsində göstərilmişdir: "25 aprel 2025-ci il tarixdə müayinədən keçirilərkən deməsinə görə sənəti saxtalaşdırıldığından xidmətə yararlı hesab edilmişdir. Əslində isə yararsızdır. Buna görə də İnzibati Məhkəməyə müraciət etmişdir. Ayaqlarının və onurğanın əyriliyinin təyini üçün "Nizami Tibb Mərkəzi"nə rentgen müayinəsinə göndərilir. Müayinə olunan düzgün bədən quruluşlu, kafi qidalı olub, orta boyludur. Hər iki ayaq pəncəsinin ön və yan proyeksiyalı rentgenoqrammasında: sağ ayaq tağı h=23mm, L–148dər; sol ayaq tağı h=19mm, L-152dər, hər iki ayağın II dərəcəli yastıayaqlılığı qeyd edilir. Onurğanın ön və yan proyeksiyalarda rentgen müayinəsində: onurğada skolioz qeyd edilmir. Yan proyeksiyada döş fəqərəsində 56 dərəcəyə uyğun kifoz qeyd edilir. Rentgen şəkillər Birliyin radioloquna təqdim olundu. Təqdim edilmiş 25.04.2025-ci il tarixli sağ ayaq pəncəsinin yük altında yan proyeksiyalı rengenoqrafik göstəricilərinə əsasən hər iki ayağın I barmağında Hallux Valqus deformasiyası, hər iki ayaqda 2-ci dərəcəli yastıpəncəlilik qeyd edilir. 26.04.2025-ci il tarixli onurğanın döş-bel şöbəsinin iki proyeksiyalı rentgenoqrammasında 56 dərəcə altında fəqərə cisimlərində pazvari sıxılma, kifoz təyin edilir. İş üçün ağciyərlərin ventilyasiya pozğunluğu əhəmiyyət kəsb etdiyindən, müayinə

olunanla əlaqə saxlandı və "Elmi-Tədqiqat Ağciyər xəstəlikləri İnstitutu"na göndərildi. 16.05.2025-ci il tarixdə spiroqrafik müayinədə ventilyasiya pozğunluğu qeyd olunmur". **Ekspert nəticəyə gəlmişdir:** "1. Vətəndaş Ə.S.Vəliyevin adına tərtib edilmiş 31.05.2019-cu il tarixli, 2643 saylı Sağlamlıq Vəziyyətinin müayinə edilməsi aktına əsasən "3 saylı Sabunçu şəhər klinik xəstəxanası"nda xəstənin 30.05-31.05.2019-cu il tarixlərdə müayinəsi zamanı ona "Onurğanın soltərəfli I dərəcəli bel tipli skoliozu, ikitərəfli ikinci dərəcəli yastıayaqlılıq, funksiya pozğunluğu qeyd olunmur" diaqnozu qoyulmuşdur. 2. Vətəndaş Ə.S.Vəliyev məhkəmə-tibbi müayinədən keçərkən "Nizami Tibb Mərkəzi"nə müayinələrə göndərildi. "Nizami Tibb Mərkəzi"nə rentgen müayinəsinə göndərilərkən onun hər iki ayaq pəncəsinin ön və yan proyeksiyalı rentgenoqrammasında sağ ayaq tağı h=23mm, L–148dər; sol ayaq tağı h=19mm, L-152dər, hər iki ayağın II dərəcəli yastıayaqlılığı, yan proyeksiyada döş fəqərəsində 56 dərəcəyə uyğun kifoz qeyd edilir. Həmin rentgen şəkillər Birliyin radioloquna təqdim olundu və 25.04.2025-ci il tarixli sağ ayaq pəncəsinin yük altında yan proyeksiyalı rentgenoqrafik göstəricilərində hər iki ayağın I barmağında Hallux Valqus deformasiyası, hər iki ayaqda 2-ci dərəcəli yastıpəncəlilik, 26.04.2025-ci il tarixli onurğanın döş-bel şöbəsinin 2 proyeksiyalı rentgenoqrammasında isə 56 dərəcə altında fəqərə cisimlərində pazvari sıxılma, kifoz təyin edilmişdir. Ə.S.Vəliyevin "Elmi-Tədqiqat Ağciyər xəstəlikləri İnstitutu"nda 16.05.2025-ci il tarixdə spiroqrafik müayinəsində ventilyasiya pozğunluğu, onurğanın döş-bel 56 dərəcə altında fəqərə cisimlərinin pazvari sıxılma kifozu, ventilyasiya pozğunluğu qeyd olunmur. O, ikitərəfli ikinci dərəcəli yastıayaqlılıq, funksiya pozğunluğu" xəstəlikləri ilə hərbi xidmətə yararlıdır".

**Tibbi sənədlərdən məlumatlar:**

Vəliyev Əli Samir oğlunun adına tərtib edilmiş 28.07.2017-ci il tarixli, 2439 saylı Sağlamlıq Vəziyyətinin müayinə edilməsi aktında qeyd edilmişdir: "Şikayətləri ayaqlarının əyri olmasından, çox gəzərkən ayaqlarında olan ağrıdan və onurğanın əyriliyindəndir. Hər iki ayaqda olan əyriliklər anadangəlmədir. Ayaq tağlarının yastılaşması izlənilir. Ayaqaltı düzdür.Gövdənin az nəzərə çarpan "S" vari əyriliyi, kürək sümüklərinin asimmetrik yerləşməsi müəyyən edilir. Hər iki ayağın yan proyeksiyada R-da sağda L=150dər., h=22mm; solda L=150dər. Yastıayaqlıq hər iki tərəfdə II dərəcə təyin edilir. Hər iki ayağın ön proyeksiyada R-da ayaqdaraq sümüklərinin medial əyriliyi təyin edilir. Onurğanın iki proyeksiyalı R-da döş və bel fəqərələri səviyyəsində 10 dər. bucaq altında "S" vari əyrilik qeyd edilir. AKT "Sabunçu Tibb Mərkəzi"ndə xəstənin 21.06-28.07. 2017-ci il tarixlərdə müayinə və müalicəsi zamanı tərtib edilmişdir.

Ə.S.Vəliyevin adına tərtib edilmiş 31.05.2019-cu il tarixli, 2643 saylı Sağlamlıq Vəziyyətinin müayinə edilməsi aktında qeyd edilmişdir: Şikayətləri onurğanın əyriliyindən, ayaqltının düz olmasından, çox gəzərkən ayaqlarında olan ağrıdandır. Onurğanın iki proyeksiyalı R-da bel fəqərələri səviyyəsində 10 dər. bucaq altında əyrilik qeyd edilir. Skalioz I dərəcə qeyd olunur. Hər iki ayağın yan proyeksiyada R-da sağda L=150dər., h=21mm; solda L=150dər. h=21mm. Yastıayaqlıq hər iki tərəfdə II dərəcə təyin edilir. Akt 3 saylı "Sabunçu şəhər

klinik xəstəxanası"nda xəstənin 30.05-31.05.2019-cu il tarixlərdə müayinə və müalicəsi zamanı tərtib edilmişdir. Diaqnoz: Onurğanın soltərəfli I dərəcəli bel tipli skoliozu, ikitərəfli ikinci dərəcəli yastıayaqlılıq, funksiya pozğunluğu qeyd olunmur.

Ə.S.Vəliyevin adına tərtib edilmiş 22.07.2024-cü il tarixli, 2\5614 saylı Sağlamlıq Vəziyyətinin müayinə edilmsəi aktında qeyd edilmişdir: şikayətləri ara-ara ağrıdandır. Obyektiv: Onurğasında asimmetriya və çiyin asimmetriyası müşahidə olunur. Diaqnoz: "Onurğanın skoliozu I (birinci) dərəcə". Akt "Nizami Tibb Mərkəzi"ndə xəstənin 22.07.2024-cü il tarixdə müayinəsi zamanı tərtib edilmişdir.

Ə.S.Vəliyevin adına "Nizami Tibb Mərkəzi"ndə tərtib edilmiş 27.06.2024-cü il tarixli, 2\5183 saylı Sağlamlıq Vəziyyətinin müayinə edilməsi aktında qeyd edilmişdir: həmin tarixdə müayinə zamanı ona "Hər iki ayağın II (ikinci) dərəcəli yastıpəncəliyi" diaqnozu qoyulmuşdur.

Sabunçu Tibb Mərkəzində Ə.S.Vəliyevin adına icra edilmiş 26.04.2025-ci il tarixli tam onurğanın ön və yan proyeksiyalı R-müayinəsində onurğada skolioz qeyd edilmir. Yan proyeksiyada döş fəqərəsində 56 dərəcəyə uyğun kifoz qeyd edilir.

Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda Ə.S.Vəliyevin adına tərtib edilmiş 14.07.2025-ci il tarixli, 2025578063 saylı arayışından görünür ki, ona mütəxəssislər tərəfindən "XBT 10 kodu üzrə M41, M40.0, Q66.5, Q66, M81.9-Onurğanın döş-bel tipli II dərəcəli skolioz deformasiyası. İkinci dərəcəli torakal hiperkifoz. Hər iki pəncənin anadangəlmə yastıpəncəliyi (sağ birinci, sol ikinci dərəcəli) İki tərəfli anadagəlmə əyripəncəlik. Hər iki pəncənin varus deformasiyası. Osteoporoz" diaqnozu qoyulmuşdur.

Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda Ə.S.Vəliyevin adına icra edilmiş 14.07.2025-ci il tarixli tam onurğanın Th-L fəqərələrin AP pr rentgenoqramında Th1-L7 fəqərələrin sola skoliozu uçaq 12 II dərəcəli skolioz təyin edilir. Th yan pr rentgenoqrammada Cobb bucağı 46 II dərəcəli kifoz təyin edilir. Hər iki ayağın təbii statik ağırlıq vəziyyətində yan proyeksiya R-qrammalarında boylama yastı ayağın təyini: sağ ayaq tağının hündürlüyü 27 mm, ayaq tağının bucağı 150 dərəcə, sol ayaq tağının hündürlüyü 22 mm, ayaq tağının bucağı 154 dərəcə. Nəticə: sağ ayaq I, sol ayaq II dərəcə boylama yastı ayaq. Hər iki pəncənin 2 pr rentgenoqramında bilateral varus deformasiyası qeyd edilir. Görünən sümüklərdə osteoporoz təyin edilir. Nəticə: bilateral anadangəlmə əyripəncəlik.

**Məhkəmə-tibbi müayinə:**

05 dekabr 2025-ci il tarixdə Vəliyev Əli Samir oğlu "MTE və PA Birliyi" phş-in Təkrari ekspertizalar şöbəsində müayinədən keçirilərkən 25.04.2025-ci il tarixdə dediklərini təsdiq etdi. Hazırda şikayəti hər iki ayaqda çox gəzəndə və ayaqüstə duranda olan, onurğanın döş hissəsindən ağrıdan

Müayinə olunan orta boylu, idmançı (kürəkləri enli, əzlələri yaxşı inkişaf etmişdir) bədən quruluşlu, kafi qidalıdır. Sağ çiyin sol çiyinlə müqayisədə bir qədər aşağı səviyyədədir. Ayaq barmaqları cüzi olaraq içəriyə doğru dönmüş

vəziyyətdədir. Yeriyərkən sağ ayağı cüzi içəriyə doğru yönəlir. Ayağın iç hissəsi tam olaraq yerə təmas etmir. Vətəndaş müayinə üçün mütəxəssisə göndərildi.

Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda Ə.S.Vəliyevin adına tərtib edilmiş 08.12.2025-ci il tarixli, 2025578063 saylı arayışından görünür ki, ona mütəxəssislər tərəfindən "XBT 10 kodu üzrə M41, Q66.5, M81, M40.0, Q66.0-Onurğanın II dərəcəli döş kifo-skoliozu (L~ 12$^{0}$, kifotik <46$^{0}$). Anadangəlmə sağ pəncənin I dərəcəli (birinci), sol pəncənin II (ikinci) dərəcəli yastıpəncəliyi (sağ ayaq H=2,7 mm, <151$^{0}$, sol ayaq H=22 mm, <154$^{0}$). Osteoporoz. Anadagəlmə əyripəncəlik" diaqnozu qoyulmuşdur. Təqdim edilmiş rentgen görüntülər müayinə üçün mütəxəssisə göndərildi.

Birliyin ekspert-radioloqu C.T.Allahverdiyevin 09.01.2026-cı il tarixli rəyindən görünür ki, təqdim edilmiş 05.12.2025-ci il tarixli hər iki ayaq pəncəsinin yan proyeksiyalı R-qrafik görüntülərində ayaq barmaqlarının I mərhələ deformasiyaedici osteoartrozu ilə müşayiət olunan II dərəcəli boylama yastıayaqlılığa uyğun dəyişikliklər aşkar edildi.

Ədəbiyyat: "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair əsasnamə".

**Məhkəmə-tibb ekspertləri:** **Fəxrəddin Abbasov**

**Tərانə Vəlizadə**

## N Ə T İ C Ə:

2001-ci il təvəllüdlü Vəliyev Əli Samir oğlunun adına tərtib edilmiş sənədlərə, özünün məhkəmə-tibbi müayinəsinə və qərarda göstərilən suallara uyğun komissiya nəticəyə gəlir:

**1,2.** Vətəndaş Ə.S.Vəliyev məhkəmə-tibbi müayinə zamanı Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna göndərilmiş və 05.12.2025-ci il tarixdə mütəxəssislər tərəfindən müayinə zamanı ona "XBT kodu üzrə M41, Q66.5, M81, M40.0, Q66.0-Onurğanın II dərəcəli döş kifo-skoliozu (L~ 12$^{0}$, kifotik <46$^{0}$). Anadangəlmə sağ pəncənin I dərəcəli (birinci), sol pəncənin II (ikinci) dərəcəli yastıpəncəliyi (sağ ayaq H=2,7 mm, <151$^{0}$, sol ayaq H=22 mm, <154$^{0}$). Osteoporoz. Anadagəlmə əyripəncəlik" diaqnozu qoyulmuşdur.

-Qeyd edilən xəstəliklərlə əlaqədar onun hərbi xidmətə yararlı olub-olmaması Hərbi Həkim Komissiyaların səlahiyyətlərinə aiddir.

**Məhkəmə-tibb ekspertləri:** **Fəxrəddin Abbasov**

**Tərانə Vəlizadə**

09.01.2026-cı il.